

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 68 (20.969)

*16 aprel 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik




## Naxçıvanda əlahiddə ordunun yaradılması bizim dövlət siyasətimizdir

***Hər bir ölkənin təhlükəsizliyi onun silahlı qüvvələrinin hərtərəfli inkişafından asılıdır. Güclü, nizami ordu bu təhlükəsizliyin qarantı olmaqla yanaşı, həm də sülhün, firavan və rahat yaşayışın təməl prinsiplərindən sayılır. Tarixdən də məlumdur ki, istənilən dövrdə güclü ordusu olan ölkələr daim inkişaf edib, iqtisadi və siyasi qüdrətini artırıb, nüfuz sahibi olub. Ordusu zəif olanlar isə əksinə. Dünyanın qədim xalqlarından olan Azərbaycan xalqının istər uzaq, istərsə də yaxın tarixi keçmişi ordu quruculuğu işinin bir daha zəruri olduğunu sübut etməkdədir.***

Ötən əsrin əvvəllərindən başlayaraq torpaqlarımızın bu və ya digər şəkildə təcavüzə məruz qalaraq işğal olunması, işğal edilmiş ərazilərimizdə bədnam erməni dövlətinin yaradılması, sonradan bu dövlətin Azərbaycanın digər ərazilərinə iddiası və havadarlarının köməyi ilə ərazimizin daha 20 faizini işğal etməsinin əsas səbəbi ordumuzun olmaması və ya formalaşmamış dövrünə təsadüf etməsidir. Ancaq tarix yenidən bizə özümüzdə güc taparaq müstəqilliyimizi bərpa etməyə və bu müstəqilliyi təmin edəcək nizami ordu yaratmağa fürsət verdi. Bu fürsəti, eyni zamanda tarixi zərurəti dəyərləndirən isə xalqımızın ümummilli lideri Heydər Əliyev və onun ümummilli ideyaları oldu. Bu il muxtariyyətinin 90-cı ildönümünü qeyd edən qədim Naxçıvan diyarı da elə tarixin bu kəşməkəşli dərslərindən nəsibini alaraq düşmən qarşısında öz hərbi gücünü layiqincə göstərməyə qadir bir region kimi milli təhlükəsizliyimizin qarantına çevrilib.

Azərbaycanda milli ordu quruculuğunun əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 7-də ümummilli liderin rəhbərliyi ilə keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkil olunması haqqında qərar qəbul edilmişdir. Bu hadisə Azərbaycanın müstəqillik tarixində əhəmiyyətli yer tutur. Məhz Naxçıvandan başlanan milli ordu quruculuğu prosesi ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə ali hakimiyyətə qayıdışından sonra da uğurla davam etdirilmiş, Azərbaycanda silahlı qüvvələrin formalaşdırılması ardıcıl şəkildə həyata keçirilmişdir. Dahi şəxsiyyətin ordu quruculuğu sahəsində həyata keçirdiyi davamlı və məqsədyönlü tədbirlər ölkəmizin digər ərazilərinin işğal edilməsinin qarşısını almış, onun müstəqilliyinin qorunub saxlanılmasına öz töhfəsini vermişdir. Məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu Azərbaycanda bir nömrəli vəzifəyə çevrilmiş, bu sahə hər zaman diqqət mərkəzində olmuşdur. Ölkəmizin əsas strateji ərazilərindən olan Naxçıvan Muxtar Respublikasında da ötən illər ərzində bu sahə daim inkişaf etdirilmişdir. Qeyd etmək lazımdır ki, Heydər Əliyev ideyalarının layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də siyasi fəaliyyətinin bütün dövrlərində Naxçıvanın təhlükəsizliyini diqqət mərkəzində saxlamış, muxtar respublikanın müdafiə məsələlərinin yüksək səviyyədə həll olunmasında misilsiz xidmətlər göstərmişdir. Cənab İlham Əliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi fəaliyyəti dövründə 11 dəfə muxtar respublikaya səfər etmiş və demək olar ki, hər səfərində buradakı hərbi hissələrin vəziyyəti ilə yaxından tanış olmuş, ordu quruculuğu sahəsində görülən işləri yüksək qiymətləndirmişdir. Qeyd edək ki, ötən dövr ərzində muxtar respublikada yerləşən hərbi hissələrin maddi-texniki bazası gücləndirilmiş, əsgərlər üçün yeni məişət-yaşayış kompleksləri yaradılmış, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Təkcə 2003-2013-cü illər ərzində muxtar respublikada 160-dan çox hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilmişdir. Ordu quruculuğunda daim yeniləşməni, təkmilləşməni əsas hədəflərdən biri hesab edən Ali Baş Komandan cənab İlham Əliyev bunun hər zaman vacib olduğunu deyir, bu sahəyə diqqətin hər zaman öndə olacağını vurğulayır: ***"...Mən həmişə deyirəm ki, güclü dövlətin güclü ordusu olmalıdır. Hesab edirəm ki, Azərbaycan qısa müddət ərzində güclü dövlətlərin sırasına daxil edilibdir. Biz indi böyük layihələri icra edirik, həm ölkəyə, həm başqa ölkələrə böyük investisiyalar qoyuruq. Bir daha demək istəyirəm ki, biz beynəlxalq müstəvidə çox böyük nüfuza malikik. Əlbəttə ki, Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır – həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizata görə. Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcəkdir. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Mən Ali Baş Komandan kimi bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm".*** 2013-cü ilin iyun ayında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 95 illik yubileyi münasibətilə paytaxt Bakı şəhərində keçirilən möhtəşəm hərbi paradda ölkə başçısının dediyi bu fikirlər elə ilin sonuna yaxın Naxçıvan Muxtar Respublikasının simasında bir daha öz təsdiqini tapdı. Azərbaycan Prezidenti dekabrın 18-də Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman imzaladı. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, silahlı qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Muxtar diyarın məlum hadisələrdən sonra blokada vəziyyətinə salınması, Vətənimiz Azərbaycanla heç bir quru və ya dəniz əlaqəsinin olmaması, istənilən vaxtda xarici hərbi müdaxilələrin olması ehtimalı, istər sülh, istərsə də müharibə vəziyyətində hər hansı bir təhlükə yarandığı zaman buradakı qüvvələrin koordinasiyasının həyata keçirilməsi, regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan, müstəqil şəkildə regionu müdafiə edə bilən peşəkar ordu – Əlahiddə Ümumqoşun Ordusunun yaradılması bu gün regionun təhlükəsizliyində mühüm rol oynayır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına bu ilin aprel ayında gerçəkləşən növbəti səfərində də hərbi sahədə görülən işlərlə tanış olmuşdur. Ölkə başçısı səfər müddətində "N" hərbi hissəsində Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxmışdır. Azərbaycan Prezidentinə yeni silahlar və hərbi texnika barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, Naxçıvanda peşəkar ordunun yaradılması Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlərin ardıcıl surətdə, həm də dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlıdır. Ali Baş Komandan İlham Əliyevə təqdim olunan yeni, ən müasir standartlara uyğun hərbi texnika və silah-sursat bir daha muxtar respublikamızın təhlükəsizliyinin etibarlı təminatından xəbər verir. Yeri düşmüşkən, ölkə başçısı səfər ərəfəsində Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasının açılışında da iştirak etmişdir. Ölkəmizdə silahlı qüvvələrlə bağlı qanunvericilik bazasının möhkəmləndirilməsi, bu sahədə mövcud qanunların icra və tətbiq olunmasına nəzarət edilməsi ordu quruculuğu və hüquq-mühafizə orqanları ilə iş sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Məhz buna görə də hərbi prokurorluq orqanlarına daxil olan inzibati binalarda əsaslı yenidənqurma işlərinin aparılmasına, yeni binaların inşasına xüsusi diqqət göstərilir. Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasında yaradılan imkanlar da bir daha təsdiqləyir ki, ölkəmizdə ordu quruculuğunun, insan hüquq və azadlıqlarının qorunmasında mühüm rola malik olan hərbi prokurorluq orqanlarının fəaliyyətinin günün tələbləri nəzərə alınmaqla qurulması bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olmuşdur.

Təbiidir ki, muxtar respublikanın təhlükəsizliyinin etibarlı təminatı cənab İlham Əliyev tərəfindən atılan uğurlu və məqsədyönlü addımların nəticəsində daha da möhkəmləndirilmişdir. Bu qədim Azərbaycan torpağında ordu quruculuğunun yeni bir mərhələyə qədəm qoyması, sürətli və daimi inkişaf düşmənlərimizə gözdağıdır. Mövcud hərbi potensialın gələcəkdə də möhkəmləndiriləcəyi muxtar respublikanın 90 illik yubileyi münasibətilə keçirilən mərasimdə bir daha Ali Baş Komandan tərəfindən səsləndirildi. Bu fikirlər isə ölkə başçısının Naxçıvana – Müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsinə olan diqqəti və bu strateji diyarın təhlükəsizliyinə verdiyi ən böyük töhfədir: ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu, belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır. Azərbaycan dövləti zəngin dövlətdir. Bildiyiniz kimi, bizim dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə qədər ki torpaqlarımız işğal altındadır, bu, belə də olmalıdır.***



***Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Yəni bundan sonrakı illərdə də Naxçıvanın hərbi gücünün artırılması üçün əlavə tədbirlər görüləcəkdir".***

**Səbuhi HƏSƏNOV**

# Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anım günü münasibətilə tədbir

*Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anım günü münasibətilə dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tədbir keçirilmişdir. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi müəssisədənkənar ərazi ilk təşkilatının birgə keçirdiyi tədbirdə əvvəlcə yaradıcılıq mərkəzinin tərtibatçı-rəssamı Səkinə Qarayevanın fərdi sərgisinə baxış olmuşdur.*



Sərgiyə baxışdan sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli çıxış edərək bildirmişdir ki, Zərifə xanım Əliyeva Azərbaycan səhiyyəsinin qurucusu və təşkilatçısı olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmış, həkimlik sənətinə uşaq yaşlarından böyük həvəs göstərmişdir. 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olan və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirən Zərifə xanım Əliyeva Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara olan sonsuz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdır. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil almış və elmi tədqiqatla məşğul olmuşdur.

Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktikası ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir. Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsində" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir. 1968-ci ildən başlayaraq Zərifə xanım məqsədyönlü şəkildə professional oftalmologiya məsələləri, o cümlədən görmə orqanının patologiyası ilə ciddi məşğul olmağa başlamış, sözün əsl mənasında, bu sahənin ilki olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın olmuşdur. 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına müdir seçildikdən sonra isə onun fəaliyyəti daha da genişlənmişdir. Alimin görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işlərinin tətbiqi bir sıra xəstəliklərin diferensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. 1983-cü ildə gərgin elmi-təşkilati fəaliyyətinə və oftalmologiyanın inkişafında xüsusi xidmətlərinə görə Zərifə xanım Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Onun oftalmologiyanın aktual problemlərinə həsr edilmiş sanballı və çoxprofilli tədqiqatları nəinki respublikamızda, eyni zamanda dünya səhiyyə sistemində alimə şöhrət qazandırmışdır.

Qeyd olunmuşdur ki, Zərifə xanım tibb elmindəki nailiyyətləri ilə bərabər, həm də sədaqətli ömür-gün yoldaşı, gözəl ana olmuşdur. Həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, ailə üzvlərinə qarşı səmimiliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi Zərifə xanım Əliyevanı hər kəsə sevdirmiş, onu gələcək nəsillər üçün əsl nümunəyə çevirmişdir.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Rauf Hüseynovun, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri Yazgül Rzayevanın, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin şöbə müdirləri Rafiq Abbasovun və Alidə Səfərovanın çıxışları olmuşdur.

Sonda görkəmli alim Zərifə xanım Əliyevaya həsr olunmuş şeirlər bədii qiraət edilmişdir.

**S.HƏSƏNOV**

# Hərbi xadim, general-mayor II Kalbalı xan Naxçıvanskinin 190 illik yubileyi qeyd olunub



Hərbi xadim, general-mayor II Kalbalı xan Naxçıvanskinin 190 illik yubileyi ilə əlaqədar olaraq AMEA Naxçıvan Bölməsində elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Kəngərlilər-Naxçıvanskilərin Azərbaycan və ümumilikdə, Qafqaz tarixində misilsiz xidmətlərindən danışıb. Vurğulanıb ki, bu nəslin Azərbaycan tarixinə bəxş etdiyi 6 cəsur generaldan biri də II Kalbalı xan Naxçıvanskidir.

Elmi konfransda "General-mayor Kalbalı xan Naxçıvanskinin həyat və fəaliyyəti" mövzusunda geniş məruzə edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev çar Rusiyası dövründə Sankt-Peterburqda Paj korpusunda təhsil alan ilk azərbaycanlı – general-mayor II Kalbalı xan Naxçıvanskinin zəfər yolu, döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar, Vətənə sədaqətli xidməti haqqında maraqlı faktlar səsləndirib.

Məruzəçi xüsusi vurğulayıb ki, Moskva və Tiflis arxivlərindən tapılan sənədləri araşdırarkən aşkar olub ki, Azərbaycandan bu hərbi məktəbdə ilk təhsil alan Naxçıvanın naibi I Ehsan xanın oğlu II Kalbalı xan Kəngərli olub. Mahir bir sərkərdə olan general-mayor II Kalbalı xan Naxçıvanski 15 aprel 1855-ci ildə Rusiya imperiyasının ən yüksək hərbi mükafatlarından birini – dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenini alıb.

Həmin institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyev "General II Kalbalı xan Naxçıvanskinin 1853-1856-cı illər Rusiya-İran müharibəsində iştirakı", institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov isə "General-mayor Kalbalı xan Naxçıvanskinin 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində iştirakı" mövzusunda məruzələr ediblər.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərli və institutun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə də bu görkəmli şəxsiyyətin fəaliyyəti və Kəngərlilərin tarixdəki xidmətlərindən danışıblar.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Elnur KƏLBİZADƏ**

# Naxçıvan Dövlət Universitetində yeni layihə həyata keçiriləcək

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki Səfirliyinin ictimaiyyətlə əlaqələr üzrə şöbə müdiri Stefan Qays, mədəniyyət və təhsil üzrə müşaviri M.Kelli Kalam Naxçıvan Dövlət Universitetində olmuşlar. Universitetin rektoru, professor Saleh Məhərrəmov dünyaya inteqrasiya baxımından beynəlxalq tərəfdaşlığın əhəmiyyətini vurğulamış, Naxçıvan Dövlət Universitetinin strukturu, maddi-texniki bazası, beynəlxalq əlaqələri haqqında qonaqlara məlumat vermişdir. Rektor bildirmişdir ki, özünəməxsus inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti dünyanın 80 tanınmış ali məktəbi ilə əməkdaşlıq əlaqələri yaratmışdır. Amerika Birləşmiş Ştatlarının Səfirliyi iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın inkişafında, müştərək layihələrin gerçəkləşdirilməsində mühüm rol oynayır.

Stefan Qays və xanım M.Kelli Kalam beşgünlük səfər zamanı "Amerikanı tanıyaq" adlı ödənişsiz silsilə proqram çərçivəsində treninqlərin keçiriləcəyini bildirmişlər. Qeyd olunmuşdur ki, treninqlər ingilis dilinin interaktiv üsullarla tədrisi, ingilis dili müəllimlərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu dilin tədrisində sosial şəbəkədən və onlayn resurslardan istifadə, eləcə də digər mövzularda olacaq.

Treninq başlamazdan öncə universitetin rektoru, professor Saleh Məhərrəmov və Amerika Birləşmiş Ştatları Səfirliyinin ictimaiyyətlə əlaqələr üzrə şöbə müdiri Stefan Qays ölkələrarası siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafında elm və təhsil sahəsində tərəfdaşlığın, ingilis dilini mükəmməl öyrənmənin əhəmiyyətindən bəhs etmiş, treninq iştirakçılarına uğurlar arzulamışlar.

Sonra treninqlərə start verilmişdir. Naxçıvan Özəl Universitetindən də bir neçə müəllim olmaqla, 23 nəfər müəllimin iştirak edəcəyi beşgünlük treninqin sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.

**Mehriban SULTAN**

# Təhsil kurikulumları: nəzəri problemlər

*Bu mövzuda Naxçıvan Müəllimlər İnstitutunda respublika elmi konfransı keçirilib*

Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Naxçıvan Müəllimlər İnstitutunun birgə keçirdiyi elmi konfrans Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuşdu. Ölkəmizin və muxtar respublikamızın müxtəlif ali məktəblərinin əməkdaşlarının, şəhər və rayon təhsil şöbələri nümayəndələrinin, qabaqcıl müəllimlərin, psixoloqların, uşaq bağçası tərbiyəçilərinin iştirak etdikləri elmi konfransın plenar iclasını Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli açaraq tədbirin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, cəmiyyət inkişaf etdikcə həyatımızın bütün sahələri kimi, təhsilə də yeni yanaşma zərurəti yaranır. Bugünkü konfrans fəal təlim metodlarından olan təhsil kurikulumlarının nəzəri problemlərinin öyrənilməsinə və tətbiqinə həsr edilib.

Plenar iclasda institutun Kurikulum mərkəzinin metodisti Tamara Baxşəliyevanın, institutun əməkdaşları – pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyevin, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlının məruzələri dinlənilib.



Məruzələrdə qeyd olunub ki, müasir əsas pedaqoji anlayışlar kurikulum strategiyasının, onun mahiyyətinin və məzmununun öyrədilməsində mühüm rol oynayır. Bu məqsədlə Azərbaycan cəmiyyətinin tələbləri əsasında təhsilin yenidən qurulması bir vəzifə kimi qarşıya qoyulub. Bununla da, milli kurikulumun tədrisdə tətbiqi öz əksini tapıb. Artıq respublikamızda 7 ilə yaxındır ki, ümumtəhsil məktəblərində Ümumi Təhsil Konsepsiyası üzrə (Milli Kurikulum) tədrisə başlanılıb.

Plenar iclasdan sonra elmi konfrans öz işini "Kurikulumda təlimin təşkili", "Kurikulumda məzmun standartları və dərs nümunələri" və "Kurikulumda strategiyalar" adlı bölmələrdə davam etdirib.

Bölmə iclaslarında Naxçıvan Müəllimlər İnstitutunun professorları Akif İmanlının, Sədaqət Həsənovanın, Naxçıvan Dövlət Universitetinin professoru Gültac Əliyevanın, Naxçıvan Dövlət Universitetinin dosentləri Kamal Camalovun, Rəcəb Ağayevin, tam orta məktəb müəllimlərinin, psixoloqların və başqalarının məruzələri dinlənilib.

**Xəbərlər şöbəsi**

# Muxtar respublika sakinləri artıq elektrik enerjisindən və qazdan istifadə haqlarını da internet üzərindən ödəyə bilərlər

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında növbəti elektron ödənişli xidmətlər istifadəyə verilib.*

Yeni xidmətlərə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin və "Naxçıvanqaz" İstehsalat Birliyinin əhaliyə satdığı enerjinin və qazın ödəniş haqlarının elektron formada ödənilməsi daxildir. Nazirliyin mütəxəssisləri tərəfindən hər iki müəssisənin elektron bazası formalaşdırılaraq avtomatlaşdırılıb. Bundan sonra muxtar respublika əhalisi elektrik enerjisi və qaz sərfiyyatına görə borclarını öyrənə və real vaxt rejimində plastik kartlar vasitəsilə internet üzərindən ödəyə bilərlər. Bu sistem abunəçilərin onlayn rejimdə çevik ödəmə prosesini həyata keçirməyə imkan verir. Bunun üçün abunəçilər **www.e-hokumet.nmr.az** saytına daxil olaraq onlayn ödənişlər bölməsindən həmin xidməti seçib, əgər varsa, ev telefonunun nömrəsini, yoxdursa, onlara verilmiş 9 rəqəmli kodu yazaraq ödəniş edə bilərlər.

Qeyd edək ki, "Elektron hökumət" portalı üzərindən ilk onlayn rejimdə ödənişlərə 2013-cü ilin sentyabr ayından rabitə xidməti haqlarının ödənilməsi və genişzolaqlı internet xidmətlərinin balansının artırılması ilə başlanılıb.

Qeyd edək ki, yaşadığımız həyatın artan tələblərini təmin etmək üçün müasir dövrdə vaxt çox məhduddur və buna görə ondan maksimum qənaətlə istifadə etməyə çalışırıq. Bu amil sürətlə inkişaf edən elektron ödəmə sistemlərinin qurulmasını və ondan istifadəni qaçılmaz edir, eyni zamanda bu sahənin yüksələn xətlə inkişafına imkan yaradır. Elektron pulköçürmə sistemləri onlayn ödəməni günün istənilən vaxtında həyata keçirməyə imkan verir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

# Maarifləndirici tədbirlər davam etdirilir

Babək rayonunda "Pensiya siyasəti, sosial sığorta qanunvericiliyi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev açıb.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşlarından Yaşar Məmmədovun, İsmayıl Həsənovun, Nurlan Mustafayevin, fondun Babək Rayon Şöbəsinin müdiri Natiq Hacıyevin çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, işəgötürən hər bir işçi ilə əmək müqaviləsi bağladığı zaman qanunvericiliklə müəyyən olunmuş qaydada onun icbari sığortalanmasını təmin etməlidir. Əmək müqaviləsində işçinin sığortalanması, o cümlədən onun əlavə sığorta olunub-olunmaması barədə müvafiq məlumatlar hökmən göstərilməlidir. Qanunvericiliyə əsasən, işçilərin sosial sığortası icbari dövlət sığortası, onların özləri tərəfindən könüllü sığortalanması və işəgötürən tərəfindən aparılan əlavə sığorta formalarında həyata keçirilir.

Çıxış edənlər məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və əhəmiyyətindən, könüllü sosial sığortanın üstünlüklərindən, əmək pensiyaları və sığortaolunanların pensiya təminatı hüququndan, sığortaolunanların fərdi uçotunun təşkilindən də danışıblar.

Qeyd olunub ki, işəgötürənlərlə işçilər arasında tənzimlənən münasibətlərdən ən əsası məhz işləyən vətəndaşların gələcəkdə pensiya təminatı hüququnun yaradılması, eləcə də əmək qabiliyyətinin müvəqqəti itirilməsi, uşağın anadan olması, uşağa qulluq, sanatoriya-kurort müalicəsi zərurəti kimi sosial sığorta hadisələrindən yararlanmaları üçün onların "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq tələblərinə uyğun şəkildə məcburi dövlət sosial sığortasına cəlb olunmasını təmin etməkdir. Bütün işləyən vətəndaşlar məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında və tam məbləğdə ödənilməsinə maraqlı olmalıdırlar.

**Səbuhi HÜSEYNOV**

# Kainata açılan pəncərə: Batabat Astrofizika Rəsədxanası



***Hələ lap qədim zamanlardan insanlar onları əhatə edən aləmi – kainatı öyrənməyə maraq göstərmişlər. Bu, onunla əlaqədar idi ki, əcdadlarımız öz həyat və məvcudluqlarının bu və ya digər formada səma ilə sıx bağlı olduğunu idrak etməyə başlamışdılar. Məhz bu səbəbdən səmada gözlə görünən nə varsa, hamısı insanlar tərəfindən ilahiləşdirilir, dünyada və hətta ayrı-ayrı insanların həyatında baş verən bütün hadisələrin mütləq surətdə onlarla bağlı olduğu qəbul edilirdi. Min illərlə ölçülən bir dövr ərzində insanların səma haqqındakı dünyagörüşlərində mühüm dəyişikliklər baş vermişdir. Artıq insanlar Yer üzərində istiqaməti, fəsillərin bir-birini əvəz etməsini, mövsümi işlərin başlanma və qurtarma vaxtlarını asanlıqla səma cisimlərinin – Günəşin, Ayın və ulduzların səmadakı vəziyyətinə uyğun təyin etməyi bacarırdılar. Məhz bu səbəbdən göy cisimləri daim müşahidə obyektinə çevrilmişdir.***

Orta əsrlərdən etibarən göy cisimlərinin, ümumiyyətlə, kainatın müşahidəsi və tədqiqi hər cür texniki vasitələrlə təmin olunmuş rəsədxanalarda yerinə yetirilir. Bu rəsədxanalardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanasıdır. Batabat Astrofizika Rəsədxanası bölmənin tərkibində fəaliyyət göstərən 6 elmi-tədqiqat müəssisəsindən biridir. Rəsədxana Naxçıvan şəhərindəki inzibati binadan, Şahbuz rayonu ərazisində yerləşən Batabat və Ordubad rayonu ərazisindəki Ağdərə stansiyalarından ibarətdir. Batabat Astrofizika Rəsədxanası barədə ətraflı məlumat əldə etmək üçün rəsədxananın direktoru Qulu Həziyevlə həmsöhbət olduq:

***– Qulu müəllim, Naxçıvanda Batabat Astrofizika Rəsədxanası kimi göy cisimlərini öyrənən bir elmi mərkəzin yaradılmasında hansı amillər rol oynamışdır?***

– Batabat Astrofizika Rəsədxanası təşkil olunmazdan əvvəl Naxçıvan Muxtar Respublikası ərazisində 2 astronomik rəsədxana fəaliyyət göstərmişdir. Bunlardan biri Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsi, digəri isə Sankt-Peterburq şəhərində yerləşən Pulkova Rəsədxanasının Ordubad rayonunun Ağdərə ərazisindəki astronomik stansiyası idi. Bu rəsədxanaların hər ikisi keçən əsrin 70-ci illərinin ortalarından fəaliyyətə başlamışdır. Hər iki rəsədxana üçün Naxçıvan ərazisinin seçilməsi təsadüfi olmamışdır. Naxçıvan Muxtar Respublikasında astronomik müşahidələr üçün ideal təbii-iqlim şəraitinin mövcudluğu və bölgənin Yer ekvatoruna yaxın olması burada unikal astronomik müşahidələrin aparılmasına imkan yaradır. Hər iki rəsədxanada 15 ildən artıq bir dövrdə aparılan müşahidələr və tədqiqat işləri bunu bir daha təsdiq etmişdir. 1992-ci ildə Ağdərə stansiyası Şamaxı Astrofizika Rəsədxanasına birləşdirilmişdir. Çox təəssüf ki, keçən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərində baş verən məlum hadisələrdən sonra faktiki olaraq hər iki rəsədxanada astronomik müşahidələr dayandırılmışdır. Ümummilli liderimizin AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə hər iki rəsədxanaya yeni həyat verilmişdir. Belə ki, Batabat Astrofizika Rəsədxanası təşkil olunarkən həm Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsinin, həm də Ağdərə stansiyasının maddi-texniki bazasından və kadr potensialından istifadə olunmuşdur.

***– Sizcə, astronomiyanı digər elmlərdən fərqləndirən əsas cəhət nədir və bu mənada astronomlar digər alimlərdən nə ilə fərqlənirlər?***

– Maraqlı sualdır. Bilirsinizmi, astronomiyadan tamamilə xəbərsiz olaraq çox yaxşı fizik, riyaziyyatçı, bioloq, kimyaçı, tarixçi, ədəbiyyatşünas və sair olmaq mümkündür və belə alimlər kifayət qədərdir. Ancaq ən azı fizikanı, riyaziyyatı və kimyanı, hətta tarix və ədəbiyyatı da az və ya çox dərəcədə bilmədən astronom olmaq mümkün deyildir. Məncə, astronomiyanın digər elmlərdən və astronomların digər alimlərdən fərqi elə məhz bundadır.

Rəsədxanatipli strukturların bəzi ənənəvi olmayan spesifik xüsusiyyətləri vardır: onların, bir qayda olaraq, iri yaşayış mərkəzlərindən uzaqda yerləşməsi, iş rejiminin fərqli olması, tədqiqat obyektlərinin qeyri-adiliyi, orada çalışan insanların fərqli dünyagörüşə malik olmaları və sair. Bu səbəbdən də peşəkar astronomlar bəzən ətrafdakı insanlarla, cəmiyyətlə münasibətdə bu və ya digər formada müəyyən çətinliklərlə qarşılaşırlar. Tarixdə astronomiya ilə məşğul olanların təqib olunması, cəmiyyətdənkənar elan olunmaları haqqında kifayət qədər faktlar mövcuddur.

***– Rəsədxanada hansı istiqamətlərdə elmi-tədqiqat işləri aparılır və nə kimi uğurlar əldə edilmişdir?***

– Batabat Astrofizika Rəsədxanası fəaliyyətə başlayarkən hansı istiqamətlərdə astronomik tədqiqatların aparılması, əsasən, 3 amil əsasında müəyyən edilmişdir: müasir astronomik tədqiqatların əsas prioritet istiqamətləri, rəsədxananın mövcud maddi-texniki bazası və rəsədxanada çalışacaq elmi-texniki personalın potensial imkanları. Bu şərtlər daxilində rəsədxanada Günəş sisteminin kiçik cisimlərinin – komet və asteroidlərin müşahidəsi və tədqiqi ilə bərabər, həm də Günəş fizikası, ulduz astronomiyası və göy mexanikası sahəsində tədqiqatlar aparılmışdır. Aparılan elmi-tədqiqat işlərinin nəticələri 4 fəlsəfə doktorluğu dissertasiyasında, həmçinin ölkəmizdə və xaricdə çap olunan müxtəlif elmi jurnallarda əksini tapmışdır.

***– Çətinlikləriniz olurmu?***

– Əlbəttə. Ancaq dövlətimizin elmə və elm adamlarına olan diqqəti nəticəsində bu çətinliklər asanlıqla həllini tapır. AMEA Naxçıvan Bölməsinə göstərilən hərtərəfli qayğıdan Batabat Astrofizika Rəsədxanasına da pay düşür. Az bir müddət ərzində rəsədxana üçün həm Naxçıvan şəhərində, həm də Batabat stansiyasında müasir tələblərə cavab verən inzibati binalar tikilərək istifadəyə verilmiş, elmi-texniki əməkdaşların hər biri müasir iş şəraiti olan ayrıca otaqla, internetə qoşulmuş fərdi kompüterlə təmin olunmuşdur. Rəsədxananın ən müasir cihaz və avadanlıqlarla təminatı intensiv surətdə davam etdirilir və kollektivimiz əmindir ki, ən yaxın vaxtlarda Batabat Astrofizika Rəsədxanası regionda nümunəvi bir elmi müəssisəyə çevriləcəkdir.

***– Konkret olaraq, 2014-cü ildə və yaxın gələcəkdə Batabat Astrofizika Rəsədxanasından hansı yenilikləri gözləmək olar?***

– Bildiyimiz kimi, 2014-cü il Naxçıvanda "Muxtariyyət ili" elan olunmuşdur. Bu münasibətlə rəsədxanada Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş seminar və konfranslar keçiriləcəkdir. Bundan əlavə, muxtar respublikamızın kütləvi informasiya vasitələrində astronomiyaya aid elmi-kütləvi çıxışların edilməsi və məqalələrin dərc olunması nəzərdə tutulmuşdur. Məncə, Batabat Astrofizika Rəsədxanasında 2014-cü il üçün nəzərdə tutulmuş elmi-tədqiqat işlərinin layiqincə yerinə yetirilməsi elə "Muxtariyyət ili"nə ən yaxşı töhfə olar.

AMEA Naxçıvan Bölməsinin digər elmi-tədqiqat institutları kimi, Batabat Astrofizika Rəsədxanasının da ən müasir avadanlıqlarla təchiz olunması intensiv surətdə davam etdirilir. Bu, o deməkdir ki, yaxın illərdə rəsədxanada aparılan elmi-tədqiqat işlərinin əhatə dairəsi daha da genişləndiriləcəkdir.

***– Maraqlı müsahibə üçün sağ olun.***

✍ **Nərgiz İSMAYILOVA**

***...Ömrü-günü açıq havada, alaçıqda keçən, beli bükülüb illərin izlərini nurlu çöhrələrindəki qırışlarda yaşadan ağbirçəklərimiz, ağsaqqallarımız əlləri iş tutandan torpaqla sirdaş olublar. Alın tərini torpağa qarışdıran, əllərinin qabarı ilə torpağı əzizləyənlər onun verdikləri ilə dövran sürüblər. Nə gecə biliblər, nə gündüz. Sağlamlığın da, uzunömürlülüyün də əlacını işdə, zəhmətdə, torpaqla ünsiyyətdə görüblər. "İş insanın cövhəridir" deyənlər də elə əliqabarlı babalarımız olublar. Onlar çöldə işləyib yorulanda bir ağacın dibində oturub, bir qurtum su içib, bir dürmək çörək yeməklə canlarındakı yorğunluğu çıxarıblar. Günün günorta vədəsində isə bir çimir yuxudan sonra yenidən torpaqla çək-çevirə başlayıblar ta Günəş dönüb anasının qoynuna girənə kimi. Sağlığı da, saflığı da, uzun ömrü də beləcə qazanıblar.***

# Yaşıl sərvətin keşiyində

## *Bu sərvəti göz bəbəyi kimi qoruyub gələcək nəsillərə əmanət qoymaq bizim müqəddəs vəzifəmizdir*



Naxçıvanda elə hər bir sahədə qədim adət-ənənələrə, milli dəyərlərə, tarixi köklərə bağlılıqla həyata keçirilən işlər təbiətə münasibətdə, torpağa sahiblikdə də öz əksini tapır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən meyvəçiliyin, tərəvəzçiliyin inkişafı və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının yaradılması məqsədilə müxtəlif vaxtlarda təsdiq edilən dövlət proqramlarının icrası məqsədilə qarşıya qoyulan vəzifələrin məqsədyönlü şəkildə həyata keçirilməsi bir daha onu göstərir ki, kəndlinin əsas iş yeri torpaqdır. Torpaq isə əkiləndə əzizlənir. Dədə-babalarımızın alın təri, böyük zəhmətlə əkib yadigar qoyduqları dar günümüzdə – blokadanın ilk illərində köməyimizə gəldi, ümid, pənah yerimiz oldu. Biz də əkməliyik ki, təbiətə aldıqlarımızın əvəzini qaytara bilək. Axı dünya bizimlə bitmir. Bu gün bizim olan sabah övladımızındır.

Təbiətimizin əsasını təşkil edən və oksigen mənbəyi olan yaşıllıqların qorunması, artırılması cəmiyyət qarşısında duran ən vacib məsələlərdəndir. Çünki bu səxavətli, əliaçıq təbiət yaşayış üçün insana hər şey verir. Çəkilən yol da, salınan körpü də, adicə kiçik bir arx da, tikilən nəhəng zavodlar, binalar da, hətta balaca bir daxma da təbiətin bir parçası olan torpaqdan istifadə nəticəsində ərsəyə gəlir. Buna görə də torpaq adlı nemətin, kainatın əsası olanın yetirdiyi, bitirdiyi bütün nemətlərin qədrini bilməliyik ki, yüksək məhsul bolluğu yarada bilək; həmçinin qorxusuz, həyəcansız bir dünyada yaşayaq.

İnsan yaranışından təbiətlə bağlı olub. O, əkib-becərib, təbiət də doyurub, dolandırıb. Ona görə də gələcəyimiz naminə bu ünsiyyəti, ən azından, babalarımız kimi saxlamağa borcluyuq.

Qafqazın zəngin təbii muzeyi sayılan Azərbaycanımız misilsiz təbii gözəlliklər diyarıdır. Çünki il boyu zirvəsi qarla örtülü olan dağlar, könülaçan sərin yaylaqlar, zəngin və nadir landşafta malik ovalıqlar, çaylar, çeşmələr, bulaqlar, canlı və cansız təbiət inciləri qərinələrdir ki, Azərbaycanı dünyada tanıdır. Belə bir gözəllik məskəni olan yurdumuza insan əli ilə yeni gözəllik naxışlarının da vurulması yurd yerlərimizdə təkrarolunmaz və heyrətamiz mənzərələr yaradıb. Əgər Azərbaycanın ən uca zirvəsindən durub Şərqin qapısı olan Naxçıvana və onun ətrafına nəzər salsaq, qeyri-adi bir mənzərəni – yaşıl dünya və al-əlvan rəngli güllər çələngi görərik. Bu görüntü içərisində muxtar respublikamızın hər bir rayonu bir ayrı mənzərə ilə könül açar. Onun yeddi şaxəsi kimi müxtəlif istiqamətlərdə yerləşən rayonlarında sanki bu gözəlliklər tamamlanır. Belə gözəlliklər diyarı olan Şahbuzda da yol boyunca sağ və sol tərəflərdə cərgələnmiş ağaclar, salınan gülkarlıqlar, dağ döşündə, yastanlarda əkilən körpə fidanlar təbiətə göstərilən insan qayğısından xəbər verir. Bu qayğını əsirgəməyən şahbuzlular əkilən tinglərin, salınan bağların və yaradılan yaşıllıq zolaqlarının məhv olmaması üçün hər həftə iməciliklər yolu ilə aqrotexniki tədbirlər həyata keçirirlər.

Bütün fəsillərdə – yazda, yayda, payızda və qışda zəhmətlərini torpaqdan və yaradılan gözəllikdən, Tanrı vergisi olan təbiətimizdən, rayonun abadlığından əsirgəməyən şahbuzlular övladlarının gələcəyi və sağlamlığı üçün görülən işlərə kömək edirlər. İməciliklər zamanı Şahbuz rayonunun sakinləri yaşıllıq sahələrini daha da genişləndirməyə, meşə sahələrindəki seyrəklikləri aradan qaldırmağa, körpə fidanların əkilməsinə, gül kollarının çoxaldılmasına çalışırlar. Elə bunun nəticəsidir ki, ötən il rayonda 65 hektar qoruyucu meşə zolağı, 159,5 hektar meyvə bağları salınmış, 2 hektar sahədə yaşıllıqların bərpası işləri aparılmışdır. 2014-cü ildə isə rayon ərazisində 12,2 hektar yeni bağ salınması nəzərdə tutulmuşdur. Bundan başqa, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun yenidən qurulması və yol infrastrukturunun dəyişdirilməsi səbəbindən Heydər Əliyev Su Anbarının ətrafından başlayaraq Biçənək kəndi ərazisinədək olan yolun kənarlarında yaşıllaşdırma tədbirləri aparılmış və əraziyə iyirmi mindən artıq meyvə tingləri əkilmişdir. Əsasən, şənbə iməcilikləri zamanı həyata keçirilən bu tədbirlər sayəsində rayon ərazisində yaşıllıq zolaqlarının ərazisi get-gedə çoxalır. Demək olar ki, şənbə günləri iməciliyə çıxan rayon əhalisi Şahbuz şəhərindəki yaşıllıq zolaqlarından tutmuş massivlərdə, bağlarda, yol kənarlarında və kəndlərdəki müxtəlif ərazilərdə əkilən ağaclara, salınan bağlara, yaradılan gülkarlıqlara qulluq edir, mövsümlə əlaqədar olaraq onları suvarır, becərmə işləri aparır. Rayon kəndlərinin hər birində bu işlər ardıcıl şəkildə il boyu davam etdirilir.

Ekologiyanın qorunması, yaşıllıqların artırılması, iməciliklər vasitəsilə həyata keçirilən bütün işlər və ümumilikdə, bu sahədə görülən tədbirlər yurd yerlərimizi daha da cazibədar edir, buraya gələn qonaqların sayını artırır. Şahbuzlular isə gördükləri işlə fəxr edir, qürur duyurlar. Çünki yaşadıqları yurd yerinin təbii gözəllikləri ilə yanaşı, insan əlinin yaratdıqları gözəlliklər də bu yerlərin şöhrətini artırmışdır.

Məlum həqiqətdir ki, planetimizdə insanların sayı sürətlə artır. Texnika günü-gündən inkişaf edir. Bunun nəticəsində bəşəriyyət öz inkişafının yüksək mərhələsinə qədəm qoyur. Və elə bu inkişaf nəticəsində insan təbiətə təsir edə bilir. Əlində mükəmməl texniki vasitələr cəmləşdirməklə təbiətdən daha çox mənfəət götürməyə çalışan insan bu mənfəətin əvəzində təbiətə nə isə vermirsə, onu qorumursa, təbiətin tarazlığını pozursa, onda həmin inkişaf onun zərərinə dəyişir. Bəlkə də, bunu xırdalıqlarına qədər diqqətdən qaçıran Adəm övladı hər addımbaşı təbiətin "qisası" ilə üz-üzə gəlir. Ona görə də təbiətə övladımız kimi qayğı göstərməliyik ki, ekoloji tarazlıq pozulmasın. Bunun isə bircə yolu var: təbii sərvətlərin mühafizəsini təşkil etmək, onlardan səmərəli istifadəyə səy göstərmək və təbiətə aldıqlarımızın əvəzini qaytarmaq – onun qayğısına qalmaq.

***İnsan təbiətə nə verə bilər? Bu sualın bircə cavabı var: çevrəsində olduğumuz bitki və heyvanat aləmini qorumaq, fauna və floranı yaşatmaq, yaşıllıq sahələrini artırmaq. Bu gün muxtar respublikamızda ulu öndər Heydər Əliyevin bu istiqamətdə qarşıya qoyduğu vəzifələr hər bir vətəndaş tərəfindən həvəslə, istəklə yerinə yetirilir. Görülən işlər isə göz önündədir.***

**Şəhla NƏBİYEVA**

## Həmyerlimiz Avropa çempionu olub

Moldovanın paytaxtı Kişinyovda keçirilən budo üzrə Avropa çempionatı başa çatıb. Qitə birinciliyinə yollanan millimizin tərkibində muxtar respublikamızın idmançısı Həsən Əliyev də çıxış edib. Çempionatın sonuncu günü həmyerlimiz 95 kiloqram çəkidə birincilik uğrunda mübarizə aparıb. Finalda Həsən Əliyevin rəqibi yarışa ev sahibliyi edən Moldova idmançısı olub. Həlledici görüşdə daha yaxşı döyüş nümayiş etdirən təmsilçimiz rəqibi üzərində tam üstünlüklə qələbə qazanıb. Avropa çempionu adını qazanan Həsən Əliyev fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb, himnimizin sədaları altında bayrağımızı ucaldıb.

## Güləşçilərimiz medallarla qayıdıblar

Ötən həftə Balakən Rayon Olimpiya-İdman Kompleksində məktəblilərin IX respublika oyunlarının proqramına daxil olan sərbəst güləş üzrə yarış keçirilib. Turnirdə Naxçıvan Muxtar Respublikasının da komandası iştirak edib. Güləşçilərimizdən 35 kiloqram çəkidə mübarizə aparan Sənan Zeynalov finala qədər yüksəlsə də, həlledici görüşdə gümüş medalla kifayətlənib. 53 kiloqram çəki dərəcəsində öz qüvvəsini sınayan Alı Məmmədov isə yarışda üçüncü yerə çıxaraq adını mükafatçılar sırasına yazdırıb. Digər idmançılarımızdan 70 kiloqram çəki dərəcəsində döşək üzərinə çıxan Seyran Hüseynli və 73 kiloqram çəki dərəcəsində yarışan Sərxan Əliyev də üçüncü yerlərlə kifayətlənərək bürünc medala sahib çıxıblar.

## Peyntbol üzrə yarış

***Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə Naxçıvan Atıcılıq Mərkəzində Vətənimizin suverenliyi və ərazi bütövlüyümüzün müdafiəsi zamanı əlil olmuş vətəndaşların iştirakı ilə idmanın peyntbol növü üzrə yarış keçirib.***

Tədbirdə Paralimpiya Federasiyasının, Gənclər və İdman Nazirliyinin nümayəndələri çıxış edərək qeyd ediblər ki, məhdud fiziki imkanlı şəxslər üçün sağlam həyat tərzinin təmin edilməsi, onların muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyası, habelə məhdud fiziki imkanlı şəxslərin yeni idman növlərinə cəlbi daim diqqət mərkəzindədir.

Peyntbol üzrə yarışda hər biri 4 nəfərdən ibarət 5 komanda iştirak edib.

Yarışın qalibi hakimlər heyəti tərəfindən müəyyən edilib. Qalib gələn komandaya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları və Paralimpiya Federasiyasının hədiyyələri verilib, digər yarış iştirakçılarına isə həvəsləndirici hədiyyələr təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**



# Min illərdən gələn inanclarımız və ya “gözmuncuğu”na müxtəlif yanaşmalar

***Həyatda elə olur ki, yolunda gedən işlər bir anda dolaşığa düşür, arzusunda olduğumuzu əldə etmək üçün ummadığımız manelərlə qarşılaşırıq. Bir çox insanlar həmin manelərə başlıca səbəb kimi bədnəzəri əsas gətirirlər. Deyirlər ki, “mənə göz dəydi”, “nəzərə gəldim”, “üzərimdə nəfəs var” və sair. Bu fikirlərdə olan insanlar astroloqlara, bioenergetik həkimlərə və el həkimi kimi tanınan “nəzərçi”lərə üz tuturlar.***

Artıq bir neçə ildir ki, parapsixoloqlar açıqlamalar verərək deyirlər ki, gözdəymədə müəyyən qədər həqiqət var. Bu, gözlərdə kəsici şüanın az və ya çox olması ilə bağlıdır. Belə gözlər insanın aurasına qəzəblə, həsədlə, hətta qibtə ilə tuşlananda həmin auranı kəsə, zədələyə bilir. Əgər gözün şüası ürəyin üstündəki cərəyan burulğanına düşsə, ürək xəstələnir, mədənin üstündəki cərəyan burulğanına düşsə, mədə ağrıları başlayır. Belə nöqtələr isə orqanizmdə 24 yerdədir ki, onlar daim hərəkətdədir. Amma onların aradan götürülməsi üçün metodlar da az deyil. Nəzər, bir növ, elektrik cərəyanı kimi daxil olduğu insanın bədəninə yayılaraq özünü müxtəlif formalarda büruzə verir. Bəzi insanlar üzərlərində müxtəlif muncuqlar, təsvirlər, dualar gəzdirərək nəzərin təsirini yox edə biləcəklərini düşünürlər, hətta buna inanırlar. Bir qisim insanlarsa bunun yanlış fikir olduğunu düşünürlər.

Ən əvvəl qeyd edək ki, yer üzündə “nəzərçi”, “kəmgöz” insan yoxdur. Sadəcə, bir hadisədən, insandan, onun müsbət keyfiyyətindən, əşyadan bu və ya digər dərəcədə təsirlənən insan vardır. Və bu təsiretmə hər kəsdə müxtəlif formada təzahür edir: kimisi gördüyünə həsəd aparır, kimisi paxıllıq edir, kimisi isə gördüklərinə görə sevinc, qürur duyğuları yaşayır. Sonuncudan başqa, digər iki təzahür forması insanda güclü mənfi enerji yaradır. Bu enerji onun daxilində qalarsa, həmin şəxsə ya xəstə olur, ya da onun özünə zərər dəyir. Gözlər ilə ötürülən bu enerji insanlara, əşyalara düşərsə, onlara zərər verir. Nəzərin meydana gəlməsində gözlər yalnız bir vasitədir. Əsl təsir ruha və ya nəfsə aiddir. İnsanın xaricə açılan pəncərəsi göz olduğu üçün mənfi enerji də məhz göz vasitəsilə kənara atılır. Nəzərdəymənin təsiri müxtəlif dərəcələrdə ola bilər. Bizə bunu alfa, betta, qamma şüalarıyla açıqlaya bilərik. Bunların hər birinin təsiri fərqli olduğu üçün verdiyi zərər də müxtəlifdir. Qibtə edilməklə atılan nəzər alfa şüasına bənzəyir. Bu nəzərin təsiri çox olmur və dəydiyi insana böyük zərər vurmadan tez keçir. Orta şiddətli nəzər dəyməsi betta kimi qiymətləndirilir. Bu nəzər həsəd və reallaşan ani istəksiz bir baxışın nəticəsində meydana gəlir. Bu nəzər növü dəringinə görə daha təsirli və zərərlidir. İnsana, heyvana və obyektlərə təsir edərkən zərər verir. Ölümə belə, səbəb ola bilər. Belə insanlar mütləq bioenergetik həkimlər tərəfindən müalicə edilməlidir.

Çox zaman insanlar nəzərdəymənin qarşısını almaq üçün mavi gözmuncuqlarından istifadə edirlər. Uşaqlar daha çox nəzərə gəldikləri üçün ilahi dua və qoruyuculardan xəbəri olmayan insanlar uşaqların üzərinə mavi nəzər muncuğu və dualar taxaraq onları qorumağa “çalışırlar”. Bəziləri isə hesab edir ki, mavi muncuqdan, yəni gözmuncuğundan istifadə etmək cahillikdir. Göz hər cür – yaxşı və ya pis, düşüncələrin ilk çıxış nöqtəsi olaraq qəbul edilir. Buna görə baxışlardan, pis gözlərdən qorunmaq məqsədilə nəzəri özünə cəlb etmək xüsusiyyəti olduğuna inanılan mavi rəngli daşlar uzun illərdən bəri istifadə olunur. Baxışlardan qorunmaq üçün gözün ortasına pisliyi özünə çəkdiyi düşünülən mavi daş yerləşdirilir. Deyilənlərə görə, gözmuncuğu nəzərdən, pisliklərdən, bəladan qoruyur və uğur gətirir.

Bəs dinimiz bu məsələ ilə bağlı bizdən nəyi tələb edir? Qeyd edək ki, müqəddəs kitabımız “Qurani-Kərim”də büt və bənzəri şeylərə tapınmaq, onları aracı etmək qəti şəkildə qadağan edilib. Bir rəngli şüşə parçası, bir budaq parçası, ya da uğurlu olduğunu düşündüyünüz bir əşya, əslində, günümüzün bütləridir. Hədislərdən birində deyilir ki, nəzər muncuğunu taxmaq qətiliklə haramdır. Bir gün Hz.Məhəmməd Peyğəmbərin yanına on nəfərlik bir heyət biət üçün gəlir. Məhəmməd Peyğəmbər doqquzunun biətini qəbul edir, onuncuya gəldikdə əlini onun əlindən çəkir. Səbəbi soruşulduğu zaman onun əlində nəzərlik (gözmuncuğu) gördüyünü bildirir. O şəxs nəzərliyi qırıb parçalayır, bundan sonra Peyğəmbər onun biətini qəbul edir. Uca Rəbbimiz “Qurani-Kərim”də belə buyurur: “Əgər Allah sənə bir zərər vurmaq istəsə, bunun qarşısını Ondan başqa heç kəs ala bilməz. Əgər sənə bir xeyir toxundursa, (heç kəs Ona mane ola bilməz). Şübhəsiz, O, hər şeyə qadirdir” .

Sonda belə bir nəticəyə gəlmək olar ki, çoxlarımızın evində, uşaqlarımızın üzərində olan gözmuncuğunu dinimiz birmənalı şəkildə rədd edir. Sizcə, adi bir şüşə və ya ağac parçası bizi mənfi enerjilərdən qurtara bilərmi?

✍ **Sona MİRZƏYEVA**

## “Oxu, qavra” adlı növbəti mütaliə yarışı

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası üzrə hazırlanmış tədbirlər planına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması istiqamətində təşkil olunan tədbirlər davam etdirilir.

Belə ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 12 uşağın iştirakı ilə “Oxu, qavra” adlı növbəti mütaliə yarışı keçirilib.

Yarış iştirakçıları bir saat ərzində elektron kitabxananın kataloqunda olan bədii ədəbiyyatdan seçilmiş hekayəni oxumaqla onun məzmununa aid tərtib olunmuş test suallarını cavablandırıblar. Ən çox test sualını düzgün cavablandıran iştirakçı yarışın qalibi hesab edilib.

Yarışda ilk üç yeri tutan sağlamlıq imkanları məhdud uşaqlara qiymətli hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar verilib.

Bu tədbir sağlamlıq imkanları məhdud uşaqlarda mütaliə vərdişi yaratmaqla onların zehni inkişafının artmasına və intellektual səviyyələrinin yüksəlməsinə xidmət edir.

## Məhdud fiziki imkanlı vətəndaşlara səyyar xidmət göstərilib

***Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin tibbi-sosial reabilitasiyalarının kompleks şəkildə həlli, o cümlədən bu kateqoriyadan olanlara protez-ortopedik xidmətlərin göstərilməsi istiqamətində davamlı olaraq müvafiq tədbirlər həyata keçirilir.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən protez-ortopedik məmulatlarına və texniki-bərpa vasitələrinə ehtiyacı olan 67 məhdud fiziki imkanlıya, o cümlədən 17 ahıla və sağlamlıq imkanları məhdud 7 uşağa növbəti səyyar xidmət göstərilib.

Məhdud fiziki imkanlı şəxslərin evlərinə gedilərək onların ehtiyacları ilə maraqlanılıb, 5 nəfərdən protez və ortez sifarişləri qəbul olunub, 6 nəfərin protezləri təmir edilib, 6 nəfərə protez-ortopediya məmulatları verilib, eyni zamanda 50 nəfər texniki-bərpa vasitələri ilə, o cümlədən 2 nəfər əlil arabası, 10 nəfər eşitmə aparatı, 38 nəfər isə müxtəlif növ əsalarla təmin edilib.

Səyyar xidmət il ərzində davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə Babək Rayon İcra Hakimiyyəti tərəfindən tərtib edilmiş tədbirlər planına əsasən, rayonun Mədəniyyət və Turizm Şöbəsi tərəfindən də silsilə tədbirlər həyata keçirilir.***

## Yubileyə həsr olunmuş konsert

***Rayon Mədəniyyət Evinin “Zabul” instrumental ansamblı və Babək Rayon Uşaq Musiqi Məktəbinin kollektivləri rayonun Sirab kəndində konsert proqramı ilə çıxış etmişlər.***

Kənd mərkəzinin qarşısında keçirilən konsert başlamazdan əvvəl aparıcılar Naxçıvanın muxtariyyət statusu qazanmasının tarixindən danışmış, ölkəmizdə, eləcə də muxtar respublikamızda mədəniyyətə göstərilən qayğıdan söz açmışlar.

Konsertdə müğənnilərdən Nərmin Hüseynlinin, Samir İsmayılovun, Mais Əliyevin, Ramil Hacıyevin, Rəfi Məmmədovun oxuduqları mahnılar, Türkan Aydının ifasında milli rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

✍ **Türkan HÜSEYNLİ**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Özgənin sahibliyində olan sahədən zəruri yol və keçidin alınması hansı qaydada tənzimlənir?*

***Cavab:*** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 175-ci maddəsinə görə, torpaq sahəsi mülkiyyətçisinin öz sahəsindən ictimai yola, elektrik, qaz və su təchizatı xətlərinə keçidi yoxdursa, o, tələb edə bilər ki, qonşular ona tam əvəzi ödənilməklə zəruri keçid ayırsınlar. Tələb, ilk növbədə, o qonşuya qarşı yönəldilir ki, mülkiyyət və keçid münasibətləri ilə əlaqədar keçid verilməsinin ondan tələb edilməsi daha yolveriləndir. Daha sonra tələb keçidin daha az zərər vurduğu qonşulara yönəldilir. Zəruri keçid müəyyənləşdirilərkən qarşılıqlı mənafelər nəzərə alınmalıdır. Sahələrindən zəruri yol və ya birləşdirici xətt keçəcək qonşulara müvafiq kompensasiya ödənilməlidir. Tərəflər arasında razılaşmaya əsasən, kompensasiya birdəfəlik ödəniş şəklində verilə bilər. Əgər torpaq sahəsi ilə artıq mövcud olmuş əlaqə xətləri mülkiyyətçinin özbaşına hərəkətləri nəticəsində ləğv edilərsə, zəruri yola və ya birləşdirici xəttə dözmək vəzifəsi əmələ gəlmir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsi***

*İtmişdir*

Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşamış Səfərova Hacıxanım Cabbar qızının adına olan 380A, 380B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

## Aztəminatlı ailələrə göstərilən qayğı artırılır

Muxtar respublikada əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər aztəminatlı ailələri də əhatə edir. Belə qrupdan olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ünvanlı sosial yardımların təyin olunması, əmək qabiliyyətli ailə üzvlərinin məşğulluq problemlərinin həll edilməsi diqqət mərkəzində saxlanılır, mütəmadi olaraq aztəminatlı ailələrə baş çəkilir, onların sosial problemlərinin aradan qaldırılması üçün lazımi tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində yaşayan Abdulla Bağırovun ailəsinə baş çəkilib. Ailənin yaşayış vəziyyəti ilə maraqlanılıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara məişət əşyaları, ərzaq payı və geyim dəstləri verilib.

Ailə üzvləri belə qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Allah rəhmət eləsin

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin elmi işlər üzrə prorektoru Mübariz Nuriyevə, əzizi **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin kafedra müdiri Validə Hüseynovaya, anası **NÖVRƏSTƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Bahar Talıbova, Südabə Aslanova, Səidə Seyidova, Elza Məmmədova, Gülnarə Hümbətova və Gülnaz Kazımova iş yoldaşları Zəkiyyə Salmanovaya, əzizi **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Gülnarə Hümbətovaya, əmisi **ABBASIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar və birliyin üzvləri Xanəli Kərimliyə, əzizi **CEYHUNUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Hafizə Rzayeva, Leyla Məmmədxanova, Hafizə Mirzəyeva, Səkinə Abutalıbova, Firuzə Əsədova və Aysel İsmayılova iş yoldaşları Zəkiyyə Salmanovaya, əzizi **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Afiq Haqverdiyev ailəsi ilə birlikdə Xanəli Kərimliyə, əzizi **CEYHUN ORUCƏLİYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin kollektivi Mübariz Nuriyevə, əzizi **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin kollektivi Xanəli Kərimliyə, əzizi **CEYHUNUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 345